HEQT

HÜQUQİ EKSPERTİZA Və QANUNVERİCİLİK TəŞəBBÜSLəRİ MəRKəZİ

# İLLİK HESABAT 2025

Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi publik hüquqi şəxs Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanı ilə yaradılıb.

## APARILMIŞ HÜQUQİ EKSPERTİZALAR

- Kazino oyunlarının təşkili və keçirilməsi ilə bağlı layihələr;
- Raritet avtomobillərin idxalı ilə bağlı layihə;
- Rəqabət Məcəlləsinin tətbiqi ilə əlaqədar NK qərar layihələri;
- Reklam fəaliyyəti üzərində nəzarətin gücləndirilməsi ilə bağlı layihə;
- Səhiyyə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı layihələr;
- Milli Arxiv İdarəsinin vahid elektron arxiv məlumat sisteminin əsasnaməsinin layihəsi;
- “Hesablama Palatası haqqında” Qanuna dəyişiklik layihəsi;
- “Azərbaycan Respublikasının 202_-2030-cu illər üçün Ailə Konsepsiyası”nın layihəsi.
- Ümumilikdə, hesabat dövründə **5 qanun** layihəsi, **6 fərman** layihəsi, **1 sərəncam** layihəsi, Nazirlər Kabinetinin **14 qərar** layihəsinin hüquqi ekspertizası aparılıb.

## MƏRKƏZİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

- Mərkəz Avropa Hüquq İnstitutunun institusional üzvü olub;
- Hesabat dövründə Mərkəzin rəsmi internet saytına 14000-dən artıq giriş, 27000-dən çox baxış, sosial şəbəkə hesablarında isə 237 000-dən çox baxı sayı qeydə alınıb;
- Mərkəzdə hüquqşünas ixtisası üzrə yaranmış yeni vakansi yalarla bağlı müvafiq namizədlərlə müsahbələr aparılaraq təyinatlar həyata keçrlib;



- 2025-ci ildə Mərkəzin fəaliyyəti barədə rəsmi internet saytının “Xəbərlər” bölməsində, sosial şəbəkə hesablarında, habelə, e-huquq.az informasiya portalında ümumilikdə, 400-dən çox paylaşım edilib.




## HAZIRLANMIŞ HÜQUQİ AKTLAR

- Naxçıvan Muxtar Respublikası Konstitusiyasına dəyişikliklərin edilməsi ilə əlaqədar layihələr;
- Kazino oyunlarının təşkili və keçirilməsi qaydaları ilə bağlı NK qərarı layihəsi;
- “Elektroenergetika haqqında” Qanuna dəyişikliklər layihəsi;
- Səhiyyə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə əlaqədar layihələr;
- Həmkarlar ittifaqları haqqında qanunvericiliyin tək milləşdirilməsi üzrə layihələr;
- Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsinin yeni əsasnamə layihəsi;
- Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin yaradılması ilə bağlı layihələr;
- QHT Agentliyinin nizamnaməsinə dəyişikliklər layihəsi Mülki Məcəllənin 3 fəslinə dəyişikliklər layihəsi
- Ələt azad iqtisadi zonasının fəaliyyəti ilə bağlı layihə.
- Ümumilikdə, hesabat dövrü ərzində **5 qanun** layihəsinin, **10 fərman** layihəsinin, **1 sərəncam** layihəsinin, Nazirlər Kabinetinin **3 qərar** layihəsinin mərkəzi icra hakimiyyəti orqanının **1 qərar** layihəsi hazırlanması təmin edilib.

(012) 526-40-51

heqt.gov.az

Bakı ş., Nəsimi r., M. Qardaşları 117C, Ritz Plaza

office@heqt.gov.az




## HÜQUQİ ARAYIŞLAR VƏ RƏYLƏR

- Konstitusiya Məhkəməsinin müraciətləri üzrə **22** hüquqi rəy;
- Ali Məhkəmənin müraciətinə əsasən **2** hüquqi rəy;
- Müxtəlif dövlət orqanlarından (qurumlarından) Mərkəzə daxil olmuş müraciətlər əsasında **7** hüquqi arayış və rəylər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

## HÜQUQİ TƏRCÜMƏ

- "Mülki və Siyasi Hüquqlar Haqqında" 1966-cı il 19 dekabr tarixli Beynəlxalq Pakt (Azərbaycan dilinə);
- "Avtomobil nəqliyyatı ilə yüklərin beynəlxalq daşınması müqaviləsi haqqında" 1956-cı il 19 may tarixli Cenevrə Konvensiyası (Azərbaycan dilinə);
- Azərbaycan Respublikasının 17 may 1996-cı il tarixli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi" (İngilis dilinə).

## NORMATİV HÜQUQİ AKTLARIN KEYFİYYƏTİNİN ARTIRILMASI MƏQSƏDİLƏ HAZIRLANAN AKTLAR

- "Mərkəzin Müşahidə Şurasının 2025-ci il 7 may tarixli MŞ/2-001 nömrəli Qərarı ilə təsdiq edilmiş "**Normayaratma texnikası Qaydaları**";
- **"Normayaratma"** adlı kitab nəşr edilib.

## ELMİ-PRAKTİKİ KOMMENTARİYALARIN HAZIRLANMASI ÜZRƏ İŞLƏR

- "**Publik hüquqi şəxslər haqqında**" Azərbaycan Respublikası Qanununun elmi-praktiki Kommentariyası hazırlanaraq nəşr edilib.



## HÜQUQİ MAARİFLƏNDİRMƏ

- Müxtəlif normativ hüquqi aktlara dair izahedici qeydlər hazırlanaraq, Mərkəzin rəsmi internet saytının "İzahedici qeydlər" bölməsində yerləşdirilib, habelə "Sual-cavab" bölməsinin yenilənməsi təmin edilib;
- 3 könüllü tələbə Mərkəzdə təcrübə proqramına cəlb edilib və sertifikatla təltif olunub.



## NORMAYARATMA VƏ HÜQUQ NORMALARININ TƏTBİQİ SAHƏSİNDƏ KEÇİLİRİLƏN TƏLİMLƏR

- 2026-cı il ərzində dövlət orqanlarında (qurumlarında) çalışan əməkdaşların hüquqi biliklərinin və təcrübələrinin artırılması üçün normayaratma fəaliyyəti və hüquq normalarının tətbiqi sahəsində **4 təlim** keçirilib. Təlimlərdə ümumilikdə, **62 nümayəndə** iştirak edib.

## MƏRKƏZİN ƏMƏKDAŞLARININ BİLİK VƏ BACARIQLARININ TƏKMİLLƏŞDİRİLMƏSİ ÜZRƏ İŞLƏR

- Mərkəzin İcraçı direktoru və Xüsusi hüququn ekspertizası şöbəsinin müdiri Vyana şəhərində keçirilən Avropa Hüquq İnstitutunun İllik Konfransında iştirak edib;
- Mərkəzin əməkdaşı 8-10 iyul tarixlərində Avropa Şurasının dəstəyi ilə Zaqreb şəhərində keçirilən Məlumatların Mühafizəsi Təcrübələri üzrə beynəlxalq təlim proqramında iştirak edib;
- Mərkəzin əməkdaşları təlimçilik sahəsində peşəkar bilik və bacarıqlarının artırılması məqsədilə cari ilin 8 oktyabr – 12 dekabr tarixlərində "Təlimçilər üçün Təlim" (Training of Trainers – TOT) proqramına cəlb ediliblər.

## MƏRKƏZƏ DAXİL OLMUŞ MÜRACİƏTLƏR ÜZRƏ

- Dövlət qurumlarından və vətəndaşlardan Mərkəzə **353 sənəd** daxil olub, müvafiq müraciətlər qanunvericiliyə uyğun olaraq cavablandırılıb.

websayt
heqt.gov.az

e-mail
office@heqt.gov.az

facebook
fb.com/heqt.merkezi